*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11 (3) 2024*

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:16.05.2024*
*Kabul tarihi |Accepted:05.06.2024*
*Yayın tarihi |Published:25.06.2024*

**Alamdar Bayramov**

*https://orcid.org/0000-0002-6599-5788*
*Associate Professor, Doctor of Philosophy Baku State University, Dean of the Faculty of Library and Information Science, Azerbaijan, alemdarbayramov@bsu.edu.az*

**Zahida Rzayeva**

*https://orcid.org/0000-0003-3696-6950*
*Associate Professor, Doctor of Philosophy, Baku State University, Azerbaijan, missdior.96@bk.ru*

**Parviz Kazimi**

*https://orcid.org/0000-0001-5577-4773*
*Associate Professor, Baku State University, Department of Philosophy, Azerbaijan, pkazimi@mail.ru*

***Atıf Künyesi | Citation Info***

Bayramov, A., Rzayeva, Z., Kazimi, P. (2024). Professor A. A. Xələfov Elmi Məktəbinin Davamçilari (Dosent Sevda Xələfovanın 60 –illik Yubileyinə Həsr Edilir). *Akademik Tarih ve Düşünce Dergisi, 11* (3), 1661-1666.

# Professor A. A. Xələfov Elmi Məktəbinin Davamçıları (Dosent Sevda Xələfovanın 60 –illik Yubileyinə Həsr Edilir)

***Xülasə***

*XX əsrin ikinci yarısında Azərbaycanda ali kitabxanaçılıq təhsili formalaşmaga başladı və professor Abuzər Xələfov bu məktəbin əsasını qoydu. 1961-ci ildə Bakı Dövlət Universitetində professor A. Xələfovun rəhbərliyi ilə müstəqil fakultəyə çevrilən "kitabxanaçılıq-biblioqrafiya ixtisası 1970-1980-ci illərdə inkişaf etməkdə idi. Azərbaycan ictimaiyyəti tərəfindən tanınmış alim, əməkdar elm xadimi professor A. Xələfov yüzlərlə mütəxəssis və onlarla alim yetişdirərək milli kitabxanaşunaslıq məktəbinin əsasını qoydu. Tarix üzrə fəlsəfə doktoru, dosent Sevda Xələfova həmin məktəbin mənsubu olaraq yetişdi, formalaşdı və mənsub oldugu elmi ənənələrin layiqli davamçısı oldu. Hazırkı məqalə S. Xələfovanın bio-*

BY NC Creative Commons Licence

*biblioqrafik fəaliyyətinin öyrənilməsinə, akademik mühitə daxil olunması və alimin 60-illik yubileyi məqsədi ilə təqdim olunur.*

***Açar sözlər:*** *Kitabxanaşunas alim, professor A. Xələfov məktəbi, elmi məktəb, elmi ənənəlәt*

## Followers of Professor A. A. Halafov School of Science (Dedicated to the 60th Birthday of Associate Professor Sevda Halafova)

***Abstract***

*In the second half of the 20th century, higher library education began to develop in Azerbaijan and Professor Abuzar Halafov laid the foundations of this school. In 1961, the speciality of "library science-bibliography", which became an independent faculty at Baku State University under the supervision of Prof. A. Halafov, developed in the 1970-1980s. The scientist, honoured scientist Prof. A. Halafov, known to the Azerbaijani people, laid the foundations of the National Library School by training hundreds of specialists and dozens of scientists. Doctor of philosophy, associate professor of history Sevda Khalafova, as a member of this school, was formed and became a worthy continuation of the scientific traditions of this school. The present article is dedicated to the bio-bibliographical activities of S. Halafova, her inclusion in the academic environment and the 60th anniversary of the scientist.*

***Keywords:*** *scientist-librarian, Professor A. Halafov School, scientific school, scientific tradition*

### Giriş

Professor Abuzər Xələfov elmi tədqiqat işinə cəlb edəcəyi namizədləri tələbəliyin ilk illərindən seçirdi (Agamirzayev- Kazimi, 2022). Tələbəlik zamanından artıq məlum idi ki, kim professorun etimadını qazanıb və ona aspirantura yolu açıqdır (Kazımi, 2012). 1981-1986-cı illərdə Sevda Xələfova artıq gələcək akademik həyatını seçmiş və tələbəlik illərindən sonra aspirantura planları qurmaga başlamışdır. Ailə qurmaq, övladları ayaga qaldırmaq vəzifələri qabaga düşdü və aspirantura planları sonraya qaldı.

2004-2009-cu illərdə aspirantura arzuları həyata keçdi və fəlsəfə doktoru proqramını bitirən kimi Sevda Xələfova müdafiəyə çıxdı və disertasiya işini ugurla müdafiə edərək tarix üzrə fəldəfə doktoru elmi dərəcəsini aldı. “XX əsrin 70-90-cı illərində Azərbaycan Dövlət kütləvi kitabxanalar şəbəkəsinin inkişafı” mövzusunda disertasiya işi 2000-ci illərdə mütəxəssislərin diqqətini cəlb etdi. Dissertasiya sonrakı illərdə monoqrafiya olaraq çap edildi və Bakı Dövlər Universitetinin İnformasiya və sənəd menecmenti fakultəsinin tədqis ədəbiyyatları sırasına daxil oldu. Monoqrafiya çapdan çıxan zamanlar rəqəmsallaşmanın həyatımıza sürətlə daxil oldugu dövrə təsadüf edirdi. Gənclərin, erkən yaşlı məktəblilərin ictimai mütaliədən kənarda qalmaması, ənənəvi mütaliə vərdişlərinin aşılanması sahəsində kütləvi kitabxanaların vəzifələri irəli sürülür, kütləvi

kitabxanaların yeni, innovativ metodların öyrənilməsi və tətbiqi sahəsində təkliflər edilirdi. Rəqəmsallaşma və kitabxanalarda yeni texnologiyaların tətbiqi məsələləri alimin gələcək elmi fəaliyyətində də özünü göstərirdi. 2010-cu ildə S. Xələfova "Elektron kataloq axtarış sistemində" adlı metodiki göstərici hazırlayaraq çap etdirdi. Kitabxana-informasiya fəaliyyətinin praktiki problemlərinə həsr edilmiş vəsait alimin gələcək tədqiqatlarını stimullaşdırdı.

Sonrakı illərdə tədqiqatçı alim diqqətini texnoloji problemlərə yönəldir və bu sahədə bir neçə elmi məqalə çap etdirdi. 2013-ci ildə "Azərbaycanda birləşdirilmiş elektron kataloqun yaradılması ölkənin informasiya resurslarının əsası kimi'' (Khalafova, 2013). adlı məqaləsi Rusiya Federasiyasının Samara şəhərində çap olundu. Mövzunu dosent Knyaz Aslan birlikdə inkişaf etdirərk "Ölkənin informasiya resurslarinin əsasinda Azərbaycanda elektron kataloqun yaradilmasi" (kyzy Khalafova, 2013) adlı yeni bir məqalə çap olundu. Həmin ildə dosent N.İsmayılovla birlikdə "Keçid dövründə Azərbaycan kitabxanalarının kompüterləşdirilməsi problemləri" (Ismailova-Khalafova, 2013) adlı məqalə Ukrayna elmi mühitində təqdim olundu.

Ali təhsil problemləri ilə yaxından tanış olan tədqiqatçı 2015-ci ildə "Təhsilin informasiyalaşdırılması: Oxucunun şəxsi kabineti və elektron kitabxananın universitetdəki yeri" (Baryshev- Zakharov- Babina, 2015) adlı məqaləsini çap etdirdi və təhsi prosesinə informasiya xidmətinin təşkili problemlərini təhlil edirdi. Mövzunu inkişaf edərək 2016-cı ildə "Azərbaycan Kitabxanalarında Elektron Kataloq və Resursların yaradılması" (Khalafova & Ismayilova, 2016) adlı məqalə ingilis dilində çap olundu. Burada da elmi informasiya xidmətinin problemləri gündəmə gətirilirdi. Həmin ildə alimin "Kitabxanalarda elektron resurslarla işin təşkili" (Khalafova, 2016) adlı məqaləsi ingilis dilində Ukraynanın nüfuzlu elmi jurnalında çap olundu. Məqalələr Ukrayna və Gürcüstanın elmi mühitinə daxil oludu.

2017-ci ildə "Ədəbi fondun formalaşması: İdeya, konsepsiya və inkişaf" (Khalafova, 2017) adlı, həmin ildə, "Kitabxana kataloqları: mövcudluq və təkamül formaları" (Khalafova & Ismayilova, 2017) adlı məqalələri çap edildi. Kitabxanaların fondunda ədəbi əsərlərin komplektləşdirilməsi və milli ədəbi nümunələrin təbliginin təşkili ilə əlaqədar elmi təhlillər edir.

2019-cu il Bakı Döblət Universitetinin 100-illik yubileyi qaşısanda yüzlətlə alim öz əsərini bu yubileyə həsr edirdi. S.Xələfova dogma universitetin yüz illik yubileyinə həsr etdirdiyi BDU kitabxanasının fəaliyyəti ilə əlaqədar tədqiqatı mütəxəssislərin diqqətini cəlb etdi. 2019-cu ildə "Bakı Dövlət Universitetinin kitabxanasının 100 illiyi: Mütəxəssis və elmi hazırlığına töhfə" (Khalafova-Ismaylova, 2019) adlı məqaləsi çap olundu. Məqalədə müəyyən edilmiş tarixi və statistik məlumatlar Vikipediyada universitet kitabxanasının səhifəsində mənbə olaraq göstərildi.

nəticə olaraq S. Xələfova Bakı Dövlət Universitetinin 100-illiyinə təsis edilmiş "BDU-nun 100 illiyi" medalı ilə təltif olundu.

2019-cu ildə çap olunan "Elektron informasiya mühitində kitabxana xidmətləri" (Khalafova, 2019) adlı məqalə əsasən elmi kitabxanalarda yeni layihələrin tətbiqi məsələlərinə həsr edilmişdir. 2021-ci ildə "Universal elmi kitabxanaların informasiya ehtiyatlarının qiymətləndirilməsi meyarları" (Khalafova, 2021). 2022-ci ildə "Kitabxananın informasiya resurslarının idarə olunmasında rəqəmsal marketinqin rolu" (Ismayilov & Khalafova, 2022), həmin ildə "İstifadəçilərə məlumat verən kitabxana saytları" (Ismaylov-Khalafova, 2022), eləcə də "Azərbaycan kitabxanalarının diyarşünaslıq sənədli şəbəkə resurslarının ümumi xarakteristikası" (Nadir & Sevda, 2022) adlı məqalələri çap olundu. Alimin daha iki elmi məqaləsi- "Azerbaycan Respublikasında kitabxanaların bibliometrik xidmətlərin təşkili" (Ismailov-Khalafova, 2023) və "İqtisadiyyat sahəsində sənəd-informasiya ehtiyatlarının tipologiyasına dair" (oglu Ismayilov & gizi Khalafova, 2023) adlı əsərləri çap olundu. Bu məqalələr alimin geniş elmi-tətbiqi diapazona malik oldugunu göstərir və gündəmə gətirilən problemlərin yüksək peşəkarlıqla təhlilini özündə ifadə edirdi. 2024-cü ildə "Kitabxana-İnformasiya Fəaliyyətinin Müasir Menecmentinin Bəzi Məsələləri" (Khalafova & Rzayeva, 2024) adlı məqaləsi türkiyənin "Akademik tarix və düşüncə dərgisində" çap olundu. Məqalə İnformasiya və sənəd menecmenti fakultəsində mütəxəssislərin yetişdirilməsi təcrübəsini ümumiləşdirərək yeni dövrün tələblərini irəli sürür, innovasiya və islahatlara açıq olmagı tövsiyə edir. Son illərdə alimin səhənin müxtəlif istiqamətlərinə həsr olunmuş elmi, analitik və təcrübi əhəmiyyətli məqalələri elmi informasiya dövriyyəsinə daxil olur. əlamətdar haldır ki, bir çox məqalələr ingilis dilində, eləcə də rus dilində çap olunaraq beynəlxalq elmi ictimaiyyətin müzakirəsinə verili. Sover dövrü alimlərin rus akademik mühitində tanındıgı kimi, müstəqillik dövründə formalaşmış alimlərimizin ingilisdilli elmi məkanda yerləşməsi, nüfuzlu və indeksləşən məlumat bazalarına daxil olması diqqəti cəlb edir.

**Nəticə**

Sevda Xələfova 1987-ci ildən Bakı Dövlət Universitetinin "Kitabxanaşünaslıq" kafedrasının labarantından başlayan elmi-təcrübi fəaliyyəti uzun və mənalı oldu. 1988-199-cu illərdə BDU-nun elmi kitabxanasında redaktor, 2000-2002-ci illərdə baş labarant, 2002-2009-cu illərdə "Kitabxana resursları və sənəd axtarış sistemləri" kafedrasında müəllim, 2009-2012-ci illərdə baş müəllim olaraq fəaliyyətini davam etdirdi. 2012-ci ildən kafedranın dosenti oldu, 2019-cu ildən isə həmin kafedranın müdiri vəzifəsinə seçildi. 2020-ci illərdən başlayaraq sodent

S.Xələfova aspirant və daktarantları ilə daha sıx işləməyə başlayır və gənc alimlərin yetişdirilməsində iştirak edir. Hər il çox sayda maqistrlara təhbərlik edən alim gələcək tədqiqatçıları maqistraturada seçir, perespektivli gəncləri akademik mühitə təqdim edir, onlara elmi fəaliyyətin ilk addımlarını öyrədir. Hal-hazırda alimin ən məhsuldar elmi fəaliyyət dövrüdür və elm-təhsil təşkilatçısı kimi həmkarlarının rəgbətini qazanmışdır. S. Xələfovanın elmi əsərləri Skopus, WOS, Copernikus, ERİH-Plas, Ulakbim məlumat bazalarında indeksləşir və elmi istinadlar alır.

## Referens

Agamirzayev A. CH., Kazimi, P.F. (2022). Razmeshcheno v «Mogikan» Sovetskiy Soyuz. (K 90-letiyu pamyati professora A. A. Khalafova). *Informatsiya o tekhnike i bibliotekakh,* (12), 124-134. https://doi.org/10.33186/1027-3689-2022-12-124-134

Baryshev, R. A., Zakharov, P. A., Babina, O. I. (2015). Informatsionnaya sistema: ronnoy biblioteki v vuze. Rossiyskaya Federatsiya. *Seriya: Gumanitarnyye nauki, 8* (9), 1979-1989.

Ismailova, N., Khalafova, S. (2013). Problemy voznikayut i tochka. *Gíleya: nauchnyy vísnik,* (75), 151-152.

Ismaylov, N., Khalafova, S. (2022). Bibliotechnyye sayty, predostavlyayushchiye informatsiyu pol'zovatelyam (na osnove opyta otechestvennykh i zarubezhnykh bibliotek). *Naukovo-teoreticheskiye al'manakh Graní, 25* (2), 22-28.

Ismayilov, N. I., & Khalafova, S. A. (2022). The role of digital marketing in the management of library information resources. *Academic review*, *2*(57), 194-202.

Kazımi, P. F. (2012). Azerbaycan kitapşünaslığının BANİSİ. *Kitapxanaşünaslık ve İnformasiya Dergisi*, *1*.

Khalafova, S. (2017). Formation of lirary fund: idea, concept and development. *Гілея: науковий вісник*, (126), 148-150.

Khalafova, S. A. (2016). Organization of work with electronic resources in libraries. *Гілея: науковий вісник*, (107), 159-161.

Khalafova, S. A. (2019). Library services in the electronic information environment. *Hileya: Scientific Bulletin/Gileya*.

Khalafova, S. A. K. (2013). Tak nazyvayemyy elektronnyy katalog i azerbaydzhanskiye dokumental'nyye informatsionnyye resursy. Samarskiy nauchnyy vestnik, (2 (3)), 73-74

Khalafova, S. A., Ismaylova N. N. (2019). 100 stranits po podgotovke sotsialistov i nauki. *Novyy vektor, 3* (4(6)), 41-44.

Khalafova, S., & Ismayilova, N. (2016). Creation of Electronic Catalogue and Resources in Azerbaijani Libraries. *Bull. Georg. Natl. Acad. Sci*, *10* (1), 118-124.

Khalafova, S., & Ismayilova, N. (2017). Library catalogs: existence and evolution forms. *Retrieved from onua. edu. ua*.

Khalafova, S., & Rzayeva, Z. T. (2024). Kitabxana-İnformasiya Fəaliyyətinin Müasir Menecmentinin Bəzi Məsələləri. *Akademik Tarih ve Düşünce Dergisi*, *11* (1), 344-354.

kyzy Khalafova, S. (2013). Creating a Composite of Electronic Catalog in Azerbaijan as Basis of Information Resources of the Country. *Samara Journal of Science*, *2* (2), 73-74.

Nadir, I., & Sevda, K. (2022). General Characteristics of Local Lore Documental Network Resources of the Libraries of Azerbaijan (Based on library collection). *Technium Soc. Sci. J.*, *33*, 628.

oglu Ismayilov, N. I., & gizi Khalafova, S. A. (2023). On the typology of document-information resources in the field of economy. *Universidad Y Sociedad*, *15* (6), 224-232.